# **Həftəlik**

# *Bülleten*



**113**

**17 Oktyabr 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

**ATMİA**

info@atmia.az www.atmia.az

**"Qarabağ və Şərqi Zəngəzurun ümumi planlaşdırılması başa çatıb".**

Bu gün Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirir. Regionun ümumi planlaşdırılması başa çatıb. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyevin Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarına müraciətində deyilir.

Dövlət başçısı qeyd edib ki, 13,6 min kvadrat kilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur:

"Əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin baş planları artıq təsdiqlənib. İşğaldan azad olunmuş 6 şəhər, 2 qəsəbə və 20 kəndə insanlar geri qayıdaraq məskunlaşıb".

Prezident bildirib ki, müasir şəhərsalma prinsiplərinin tətbiqi ilə Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı infrastrukturunun qurulması, yaşayış məntəqələrinin yenidən salınması və əhalinin qayıdışı üçün zəruri şəraitin yaradılması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilir.



**“Matanat A” şirkəti İqtisadiyyat naziri cənab Mikayıl Cabbarovun rəhbərliyi, AZPROMO-nun təşkilatçılığı ilə Küveytdə təşkil olunan işgüzar səfərdə iştirak edib.**

“Matanat A” şirkəti İqtisadiyyat naziri cənab Mikayıl Cabbarovun rəhbərliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin- AZPROMO-nun təşkilatçılığı ilə Küveytdə təşkil olunan işgüzar səfərdə iştirak edib. Səfər çərçivəsində Küveyt Ticarət və Sənaye Palatasının baş direktoru Rabah Abdulrahman Al-Rabah və Küveyt iş adamları ilə görüş keçirilib.

“Matanat A” şirkətinin nümayəndəsi Şahanə Sarı “Made in Azerbaijan” inşaat materialları haqqında məlumat verib və daha sonra ikitərəfli əməkdaşlıq imkanları müzakirə edilib. Şirkətin 4 sistem, 28 məhsul qrupu üzrə 3000-dən artıq məhsul çeşidininin olması, həmçinin sürətlə qloballaşma imkanları Küveyt iş adamları tərəfindən rəğbətlə qarşılanıb.





**Bakıda 30-cu Yubiley Xəzər İnşaat Həftəsi işə başlayıb.**

Tədbir çərçivəsində 5-ci Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı “Rebuild Karabakh”, 30-cu Yubiley Azərbaycan Beynəlxalq İnşaat “BakuBuild”, 17-ci Beynəlxalq İstilik, Havalandırma, Kondisionerləşdirilmə, Su təchizatı, Santexnika və Üzgüçülük Hovuzu “Aquatherm Baku”, 4-cü Xəzər Beynəlxalq Plastik və Polimer Sənayesi Sərgisi “Plastex Caspian”, eləcə də bu sərgilərlə yanaşı keçiriləcək 13-cü Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat “Road&Traffic” sərgisi keçirilib. Tədbirin açılışda Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciəti səsləndirilib. Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov çıxışında bildirib ki, 2020-2025-ci illərdə Qarabağda icra olunan 1500-ə qədər layihələndirmə və tikinti işləri üzrə ümumi satınalma prosedurları keçirilib. Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev bildirib ki, son illər ərzində Azərbaycan iqtisadiyyatı müsbət artım nümayiş etdirir, 2025-ci ilin yanvar-sentyabr aylarında ölkədə 95 milyard 229 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox ümumi daxili məhsul istehsal olunub. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı çıxışda bildirib ki, 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və “Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın ilkin hazırlıq işləri, demək olar ki, tamamlanıb.Dövlət strukturları nümayəndələrinin iştirakı ilə baş tutan tədbir 3 gün davam edib.





**Anar Quliyev: "Bakının Baş Planında əsas xüsusiyyətlərdən biri çoxmərkəzli inkişaf modelidir".**

"Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın əsas xüsusiyyətlərindən biri çoxmərkəzli inkişaf modelinin tətbiqidir. Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Xankəndidə keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumunda (NUFA3) bildirib. Onun sözlərinə görə, bu modelə əsasən, bütün fəaliyyətlərin bir mərkəzdə cəmlənməsi əvəzinə, Bakı şəhəri boyunca bir-biri ilə əlaqəli mərkəzlər və alt-mərkəzlər şəbəkəsi formalaşdırılır: "Hər mərkəz özünəməxsus xarakterə, infrastruktura və iqtisadi funksiyaya malik olacaq. Bu planların əksəriyyəti artıq tamamlanıb və yaxud icra mərhələsindədir, beynəlxalq ekspertlərlə əməkdaşlıq çərçivəsində hazırlanaraq qlobal standartlara uyğunlaşdırılıb". O əlavə edib ki, bu gün Azərbaycan münaqişədən sonrakı bərpa modelini fəxrlə təqdim edir: "Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insan yönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir". Qeyd edək ki, Bakı şəhərinin Baş Planı Almaniyanın "AS+P Albert Speer + Partners" şirkəti (şəhərsalma, nəqliyyat planlaşdırması) tərəfindən, layihə tərəfdaşları olan Birləşmiş Krallığın Ramboll şirkəti (infrastruktur, mühəndis sistemləri, ətraf mühit), "EY Advisory" şirkətinin Fransa ofisi (şəhər iqtisadiyyatı) və BDLİ - Bakı Dövlət Layihə İnstitutu (memarlıq-planlaşdırma) ilə birgə hazırlanıb.



**Xankəndidə III Milli Şəhərsalma Forumu işinə başlayıb.**

Xankəndidə "İqlimə davamlı və sağlam şəhərlərə doğru: regional tərəfdaşlıq və innovativ həllərin imkanlarından istifadə" şüarı altında III Azərbaycan Milli Şəhərsalma Forumu (NUFA3) start götürüb. Forumda dayanıqlılıq, inklüzivlik, şəhərsalma innovasiyaları və sağlam şəhər mühitinin yaradılması əsas vurğu kimi çıxış edəcək. Buraya mənzil əlçatanlığı, münaqişədən və fəlakətlərdən sonrakı bərpa, daha ekoloji tikinti yanaşmalarının təşviqi, inklüziv şəhər idarəçiliyi, rəqəmsal innovasiyalar, təbiətəsaslı həllər və regional tərəfdaşlıqların gücləndirilməsi daxildir. NUFA3-də milli, regional və yerli hökumətlərin, təşkilatların, icmaların, akademik qurumların, özəl sektorun və digər aidiyyəti tərəfdaşların inteqrasiya olunmuş planlaşdırma, çoxtərəfli əməkdaşlıq və Paris Sazişi, Yeni Şəhərsalma Gündəliyi və Davamlı İnkişaf Məqsədləri kimi qlobal çərçivələrin lokallaşdırılması vasitəsilə iqlimədavamlı və sağlam şəhərlərin yaradılmasına töhfəsi müzakirə olunacaq. Forumda 60-dan çox ölkədən 400-ə yaxın iştirakçı təmsil olunur. Forum həmçinin WUF13-ə (Ümumdünya Şəhər İnkişafı Forumu) aparan yolda mühüm hazırlıq mərhələsi kimi çıxış edəcək, davamlı şəhər və regional inkişafın təşviqinə sadiq olan milli və beynəlxalq tərəfdaşlar arasında dialoq və əməkdaşlığa töhfə verəcək, beynəlxalq ən yaxşı təcrübələri nümayiş etdirəcək və yerli fəaliyyətləri stimullaşdıracaq.



**Binalarla bağlı yeni tələb: Enerji pasportu olmasa, satılmayacaq!**

Azərbaycanda yeni tikilən, yenidən qurulan və əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi olacaq. Məsələ artıq Milli Məclisin plenar iclasında müzakirə edilib və birinci oxunuşda qəbul olunub. Qanuna görə, pasportlaşdırma qanun qüvvəyə mindikdən sonra yalnız yeni tikilən, yenidən qurulan və əsaslı təmir olunan binalara şamil ediləcək. Mövcud, yəni istismarda olan binalar bu tələbdən kənarda qalacaq. Qayda və mexanizmlər Nazirlər Kabineti tərəfindən təsdiqlənəcək. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rövşən Muradov bildirib ki, bu dəyişiklik həm iqtisadi, həm də ekoloji baxımdan zəruridir. “Dünya əhalisinin sayı durmadan artır, eləcə də sənayenin inkişafı və insanların gündəlik tələbatı enerji istehlakını hər keçən gün artırır. Enerji istehlakının artması isə ənənəvi enerji mənbələrinin sürətlə tükənməsi və onların yaratdığı ekoloji problemlər səbəbindən enerji istehlakına nəzarət və idarəetmənin vacibliyini artırır”, – deyə deputat qeyd edib. Rövşən Muradovun sözlərinə görə, enerjiyə qənaət və ekosistemə zərərin azaldılması hazırda dünya gündəminin əsas məsələlərindəndir. “Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkəmizdə enerji sərfiyyatında ən böyük pay ev təsərrüfatı sektoruna aiddir. 2023-cü ildə bu göstərici 38 faiz olub. Qeyri-yaşayış binalarını əhatə edən kommersiya və ictimai xidmət sektorunun payı isə 13 faiz təşkil edib”.



**Naxçıvan şəhərinin Baş planının hazırlanmasına başlanılıb.**

Böyük Britaniyanın şəhərsalma sahəsində böyük təcrübəyə malik "Chapman Taylor" şirkəti Naxçıvan şəhərinin Baş planını hazırlamağa başlayıb.

Bunu şirkətin direktoru Marselina Zieliniska bildirib.

Onun sözlərinə görə, Baş Planın gələn il üçün tamamlanması planlaşdırılır :"Hədəfimiz gələn ildir. Biz onu çox tez etmək istəmədik və mən Azərbaycan hökumətinə dedim ki, bizim üçün vaxt nə qədər uzun olsa, bir o qədər yaxşıdır. Belə ki, vaxtımız olduqca, ərazini anlamaq, daha çox insanla danışmaq üçün vaxt lazımdır. Naxçıvan çox böyükdür".

Direktor əlavə edib ki, Baş Plan 20 illik müddət üçün nəzərdə tutulan yol xəritəsidir.

Xatırladaq ki, Naxçıvanın Baş Planının hazırlanması "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda öz əksini tapıb.

Şirkət Şuşa şəhərinin 2040-cı illədək inkişafına dair Baş planını hazırlayıb.



**Azərbaycan müəssisələrinin 9%-ə yaxın tikinti sektorunda fəaliyyət göstərir.**

Tikinti sektoru Azərbaycan iqtisadiyyatında mühüm rol oynayır, qeyri-neft-qaz sektorunun inkişafında əhəmiyyətli bir sahədir. Bunu Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev paytaxtda keçirilən 30-cu Yubiley Azərbaycan Beynəlxalq İnşaat Sərgisində ("Baku Build-2025") və 5-ci Azərbaycan Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı Sərgisində ("Rebuild Karabakh – 2025") bildirib. Azərbaycan iqtisadiyyatı davamlı artım nümayiş etdirir: "2025-ci ilin yanvar-sentyabr aylarında ölkədə 95 milyard manatlıq və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 % çox ümumi daxili məhsul istehsal olunub. O cümlədən, iqtisadiyyatın qeyri-neft sektorunda 2,9 % artım olub. Bu, dövlətin və özəl sektorun birgə fəaliyyətinin real nəticəsidir. Eyni zamanda ümumi daxili məhsulun ümumi dəyərinin 6,8 %-i tikinti sektorunun payına düşür. Ölkədə qeydiyyatdan keçən müəssisələrin 19 000-dən çoxu və yaxud 8,7 %-i isə məhz tikinti sektorunda fəaliyyət göstərir. Bu sektorun iqtisadi artıma töhvəsi dövlətin infrastruktur layihələrinə və özəl sektorda həyata keçirilən tikinti işlərinə olan investisiyaların artması ilə müşahidə olunur". M.Musayev əlavə edib ki, işğaldan azad olmuş ərazilərə Böyük Qayıdış Proqramı artıq praktik müstəvidə həyata keçirilir: "Yalnız son iki il ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yüzlərlə infrastruktur layihələri həyata keçirilib, o cümlədən hava limanları, avtomobil yolları, dəmir yolları və enerji mərkəzləri istifadəyə verilib.



**Bakıda Azərbaycan-Belarus biznes forumu keçirilib.**

Forumda Belarus Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dmitri Pineviç, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müavini Tural Hacılı, Belarus Ticarət-Sənaye Palatasının Minsk bölməsinin xarici iqtisadi əlaqələr üzrə baş direktor müavini, “Belarus Respublikasının ixrac potensialının təqdimatı” nümayəndə heyətinin rəhbəri İrina İvanova və digər şəxslər iştirak ediblər. Tədbirdə həmçinin AZPROMO-nun investorlarla iş şöbəsinin aparıcı mütəxəssisi Emin Quliyev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Katibliyinin rəhbər müavini Əmir Şirinbəyli və “Velikiy Kamen” Sənaye Parkının investorlarla iş üzrə idarə rəisi Roman Aleynikov tərəfindən təqdimatlar nümayiş olunub. Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müavini Tural Hacılı çıxışında bildirib ki, Azərbaycan və Belarus arasında 140-dan çox sənəd imzalanıb. “Tədbirdə 2024–2025-ci illər üçün Yol Xəritəsi aktuallaşdırılıb. Onun icrası ticarət-iqtisadi və investisiya əlaqələrinin möhkəmlənməsinə töhfə verir. Bu sazişlər sənaye əməkdaşlığı, ticarət və investisiyalar daxil olmaqla geniş istiqamətləri ehtiva edir və ikitərəfli əlaqələrin gələcək inkişafı üçün mühüm əsasdır”, - deyə T.Hacılı bildirib. O, Azərbaycan ilə Belarus arasında ticarət-investisiya münasibətlərinin möhkəmlənməkdə olduğunu vurğulayıb.



**Şərqi Zəngəzurda ilk taunhauslar və yeni memarlıq üslubunda məktəblər yaranacaq.**

"SA Partners" şirkəti Şərqi Zəngəzurun bərpası ilə bağlı baş planlara Azərbaycan üçün yeni tipli yaşayış evləri olan taunhausları daxil edib. Bunu "SA Partners"in təsisçi-tərəfdaşı Dunya Kovari-Binggeli III Azərbaycan Milli Şəhərsalma Forumunun (NUFA3) ikinci günündə bəyan edib. Onun sözlərinə görə, şirkət Azərbaycandakı fəaliyyətinə Zəngilan, Kəlbəcər və Qubadlının üç baş planının hazırlanması ilə başlayıb. "Məqsədimiz geri qayıdan sakinlər üçün təhlükəsiz, davamlı və layiqli mühit yaratmaq idi. Dağlıq relyef və şəhərlərin tamamilə dağıdılması səbəbindən əsas vəzifəmiz planlaşdırmanı praktiki icra ilə birləşdirmək oldu. Baş planlar çərçivəsində biz həm başa düşülməsi heç də asan olmayan tarixi planlaşdırmanı, həm də landşaftın xüsusiyyətlərini nəzərə aldıq", - D.Binggeli qeyd edib. O vurğulayıb ki, planların hazırlanmasında şirkət bu ərazilərin autentikliyini və təbii görünüşünü qoruyub saxlamağa çalışıb. Onun sözlərinə görə, "SA Partners" binalarla yanaşı, ətraf mühiti də layihələndirərək tikililəri də təbii landşafta üzvi şəkildə inteqrasiya edib. "Yaşıl", yaşayış və gəzinti üçün rahat, iqlimə dayanıqlı məhəllələr belə formalaşır. Biz Azərbaycan üçün yeni bir yaşayış binası prototipi - taunhauslar tətbiq etdik, həmçinin yeni məktəb prototipi - dairəvi bina işləyib hazırladıq. Bu, ölkə üçün yenilik oldu və belə innovativ ideyaları həyata keçirmək imkanına görə minnətdarıq", - D.Binggeli vurğulayıb.



**Qarabağ və Şərqi Zəngəzurda yeni istehsal müəssisələri fəaliyyətə başlayacaq.**

Şərqi Zəngəzurda yerləşən "Araz Vadisi iqtisadi zonası" və Qarabağda yerləşən Ağdam sənaye parklarında yeni layihələr həyata keçirilir.

Bunu İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin mətbuat katibi Elçin Kazımlı bildirib.

"Belə ki, "Araz Vadisi" Sənaye Parkında 8 milyon manat investisiya ilə soyutma avadanlıqlarının istehsalı müəssisəsi qurulacaq, ildə 5 növdə 3 680-dən çox avadanlıq istehsal ediləcək. Ağdam Sənaye Parkında isə 6 milyon manat dəyərində mebel fabriki fəaliyyətə başlayacaq. Müəssisədə müxtəlif təyinatlı mebellər, yumşaq panellər və metal aksesuarlar istehsal olunacaq. Bu iki müəssisənin işə düşməsi ilə əlavə olaraq 100-ə yaxın daimi iş yeri yaradılacaq".

"Ağdam və "Araz Vadisi" sənaye parklarında rezident olmaq üçün sahibkarlar 10-dan çox yeni layihə təqdim edib. Əsas istiqamətlər tikinti materialları, mebel, tekstil və məişət məhsullarının istehsalıdır", - deyə mətbuat katibi əlavə edib.



**Sərginin adı: ICW - INTERNATIONAL CONTRUCTION WEEK 2025**
**Tarixlər: 28-30 oktyabr 2025-ci il,**
**Məkan: Malayziya Beynəlxalq Ticarət və Sərgi Mərkəzi (MITEC), Kuala Lumpur (Malayziya)**
Malayziya və Cənub-Şərqi Asiyada İnşaat Sənayesi üçün İlk İllik Tədbir.

**Sərginin adı: MINING METALS UZBEKISTAN 2025**
**Tarixlər: 28-30 oktyabr 2025-ci il,**
**Məkan: Uzexpocentre, Daşkənd (Özbəkistan)**
Özbəkistanda dağ-mədən, metallurgiya və metal emalı üzrə beynəlxalq sərgi.

**Sərginin adı: ROAD CONSTRUCTION 2025**
**Tarixlər: 28-30 oktyabr 2025-ci il,**
**Məkan: Minsk-Arena, Minsk (Belarus)**
Yolların və mühəndis qurğularının planlaşdırılması və tikintisi, yol tikintisi, təmiri və istismarı üçün maşın və avadanlıqlar, qazma maşınları, yol hərəkətinin tənzimlənməsi üçün texniki vasitələr, yola xidmət və s.

**Sərginin adı: CEMENT. CONCRETE. DRY BUILDING MIXTURES 2025**
**Tarixlər: 29-31 oktyabr 2025-ci il,**
**Məkan: Crocus-Expo IEC, Moskva (Rusiya)**
Sement, Beton və Quru Tikinti Qarışıqları Avadanlıqları və Texnologiyaları üzrə Beynəlxalq Sərgi və Konfranslar.

**Bu universitetin təmiri 25 milyon manata başa gələcək - TENDER KEÇİRİLİR.**

Bakı Dövlət Universiteti açıq tender elan edib.

Müsabiqə Bakı Dövlət Universitetinin Yasamal rayonu, Akademik Zahid Xəlilov küçəsi, 33 ünvanında yerləşən 10 mərtəbəli, zirzəmili, 1 nömrəli tədris binasının əsaslı təmiri işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Nailə Əsgərli, Şöbə müdiri
Email: nailaasgarli@bsu.edu.az
Əlaqə telefonu: +994 12 539 15 36



**Dövlət qurumu 6 milyon manatlıq - TENDER KEÇİRİR.**

Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi açıq tender elan edib.
Tender inzibati binada abadlıq işlərinin aparılmasını, həmçinin respublika üzrə bir sıra məktəbəqədər və ümumtəhsil müəssisələrinin təmiri, yanğın su anbarlarının əsaslı təmiri və çirkab su anbarlarının tikintisi və bərpasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Salahova Nuranə-Gülgün, baş mütəxəssis
Email: Nurana.Gsalahova@etti.edu.az
Əlaqə telefonu: +994 12 465 73 48



**Tibbi qurum 968 min manatlıq təmir - TENDERİ ELAN ETDİ.**

Səhiyyə Nazirliyinin Tikilməkdə Olan Müəssisələrinin Müdiriyyəti açıq tender elan edib.
Müsabiqə Lökbatan qəsəbəsində yerləşən yarımçıq xəstəxana binasının profilinin dəyişdirilərək 123 çarpayılıq Narkoloji Mərkəz kimi (1-ci mərhələ) əsaslı təmir işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Cabir Muradov, sənədlərlə iş şöbəsinin müdiri
Email: ftprovision@gmail.com
Əlaqə telefonu: +994 12 493 03 18





**www.atmia.az**